# Ağstafa və Qazax rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Ağstafa və Qazax rayonlarının əhalisi 49420 nəfər olan 14 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 16 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,12 milyon (bir milyon bir yüz iyirmi min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 sentyabr 2021-ci il

Azərbaycan Respublikası Prezidentinin
2021-ci il 13 sentyabr tarixli Sərəncamına
Əlavə

Ağstafa və Qazax rayonlarında qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Ağstafa | 6 | Aşağı Göycəli kəndi | 2547 |
| | | | Göycəli kəndi (2 quyu) | 2774 |
| | | | Köhnəqışlaq kəndi | 698 |
| | | | Tatlı kəndi (2 quyu) | 2741 |
| 2. | Qazax | 10 | Ağköynək kəndi | 3815 |
| | | | Aslanbəyli kəndi | 4323 |
| | | | Aşağı Salahlı kəndi | 1971 |
| | | | Bala Çaylı kəndi | 1240 |
| | | | Cəfərli kəndi | 1268 |
| | | | Çaylı kəndi | 8069 |
| | | | Daş Salahlı kəndi | 10823 |
| | | | Xanlıqlar kəndi | 3705 |
| | | | Kəmərli kəndi | 3221 |
| | | | Qaymaqlı kəndi | 2225 |
| **Cəmi:** | | **16** | **14** | **49 420** |